**Şirəliyeva, M**. Görünmədən görmək, ölmədən geri dönmək // 525-ci qəzet. - 2025. - 30 sentyabr. - **№ 176**. - S. 14.

“Sənə hər an can qurban”... Dövlət himnimizin sadəcə bir misrası vətən sevdasının nə qədər ali, dərin və müqəddəs olduğunu söyləyir. O vətən ki, uğrunda əsrlərdir igidlər can verir, bir qarışı üçün arzularını, ümidlərini, ömürlərini fəda edirlər. Vətən tam olsun deyə dönüb vətən olur qəhrəmanlar. Elə o oğullardan biridir Elnur Zeynalov.

*Zeynalov Elnur Elsevər oğlu 28 iyul 1994-cü ildə Naxçıvan şəhərində anadan olub. 2008-2011- ci illərdə Naxçıvan şəhərində Heydər Əliyev adına Hərbi Liseydə, 2011-2015-ci illərdə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb (indiki Heydər Əliyev adına Hərbi İnstitut).*

*2015-ci ildən Azərbaycan Silahlı Qüvvələri sıralarında nümunəvi zabit kimi xidmətə başlayıb.*

*Elnur Zeynalov Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl, Qubadlı və Xocavənd istqamətində gedən döyüşlərdə istirak edib.*

*31 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Qızılqaya yüksəkliyi uğrunda gedən döyüşlər zamanı şəhidlik zirvəsinə ucalıb.*

*Qəhrəman vətən oğlu “Qarabağ” ordeni, “Vətən uğrunda”, “Füzulinin azad olunmasına görə, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif edilib.*

Elnur Zeynalovu hərb sahəsinə gətirən vətənə xidmət etmək arzusu olur. Bütöv və azad vətəndə, Xocalıda xidmət etmək arzusu...

***Zəfərə gedən yol...***

Çox yox, Vətən müharibəsindən 4 il əvvəl qazanılan Aprel Zəfəri Azərbaycan Ordusunun gücünü nümayiş edirdi. Aprel döyüşləri böyük zəfərin ilk qığılcımı oldu. Düşmənin hücum əməliyyatı vətən oğulları tərəfindən peşəkarlıqla dəf edildi və Lələtəpə, Qızılqaya yüksəkliyi yenidən ordumuzun nəzarətinə keçdi. Məhz Lələtəpədə dalğalanan üçrəngli bayrağımız qüdrətli ordudan və qaçınılmaz zəfərdən soraq verirdi. Elnur Zeynalov da Aprel döyüşlərində iştirak edən o dağ vüqarlı oğullardan biridir.

***Təlimdə tər, döyüşdə zəfər!***

Güclü ordunun, peşəkar zabitin təməlində təlimlər, kurslar dayanır. Ötən illərdə keçirilən təlimlər həm maddi texniki bazanın gücünü göstərdi, həm də savadlı kadr hazırlığına böyük töhfə verdi. Təlimdə tər, müharibədə zəfər prinsipi ilə irəli addımlayan Elnur Zeynalov müxtəlif illərdə “snayper”, “antiterror”, “dalğıc”, “paraşüt”, “xüsusi təyinatlı” kurslarına qatılıb. Qeyd edək ki 2017-ci ildə keçirilən xüsusi təyinatlı təlimdə ilk yeri Vətən Müharibəsi Qəhrəmanı Cavid Behbudov, ikinci yeri baş leytenant Əmrah Məmmədov,

üçüncü yeri isə Elnur Zeynalov qazanıb. Üç zabit də Naxçıvan şəhərində yerləşən Heydər Əliyev adına Hərbi Liseyin məzunudur.

Bu təlimlərdən sonra Elnur Zeynalov xidmətini ordunun elitası sayılan Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlı dəstəsində davam edib.

***"Dəniz pişikləri" və yaxud dəniz canavarları...***

Ordunun məxfi heyəti məhz Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlılarıdır. Onları müxtəlif adlarla səsləyirlər. Keçdikləri döyüş təlimdən asan sayılır, lakin bu təlimdən çıxmaq olduqca çətin, ağır və qəliz məsələdir. Dəniz Qüvvələrinin xüsusi təyinatlısı olmaq üçün xüsusi fiziki və zehni qabiliyyətin olmalıdır. Onlar havada, suda, quruda istənilən tapşırığı ən sürətli şəkildə icra edirlər. "Dəniz pişiyi" adını qazanmaq üçün ilk növbədə, 3 və 6 aylıq ilkin təlim mərhələsi keçirilir. Bu təlimi uğurla başa vuranlar digər təlimlərə cəlb olunur. "Dəniz pişikləri" həm quruda, həm də dənizdə onlarla təlimə qatılır. Dənizdə keçdikləri təlimlərdə iki yerə ayrılır.

Məhz təlimlərin nəticəsidir ki, bu kiçik birlik müharibənin kilid nöqtəsi sayılan məqamlarda kölgə kimi gözə göründü. Heç kim onları görmədi, amma düşmən hər addımında onların nəfəsini ənsəsində hiss etdi. Onlar sızma, məhv etmə, susdurma tapşırıqlarını ən yüksək səviyyədə icra etdilər. Düşmən isə onları bir adla səslədi - kabus!

***Şanlı tarixin ilk günü...***

Vətən müharibəsinin başlaması yüzlərlə zabitin arzusunu çin etdi. Azərbaycan əsgəri artıq döyüş meydanında mənfur düşmənə cavab verib, həsrətində olduğu torpağına geri qayıtdı. 27 sentyabr tarixindən etibarən baş leytenant Elnur Zeynalov da müharibənin qəhrəmanlarından birinə çevrildi.

Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlıları ilk tapşırığa Füzuli istiqamətindən başladı. Qısa müddət ərzində tapşırıq uğurla icra edildi. 29 sentyabr tarixində heyət növbəti əmri icra etdi - Mübariz postunun azad edilməsi!

***"Görünmədən görmək, ölmədən geri dönmək"***

Məhz bu fikir "dəniz pişikləri"nin döyüş tapşırığını ifadə edir. Onları görmək, tanımaq olmur. Onlar yalnızca tapşırığı yerinə yetirib, gözdən itirlər.

Bu xüsusi bölmə 2 oktyabr tarixində daha bir tapşırığa başlayır - Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndinin azad edilməsi... Bu kənd ordunun irəliləməsi üçün vacib istiqamətlərdən biri idi. Məhz bu kənd vasitəsi ilə düşmən əsas yolları əldə saxlayırdı. Həmçinin Böyük Mərcanlı istiqaməti döyüşün başladığı əraziyə yaxın olduğu üçün düşmən tez-tez burdan digər istiqamətlərə təminat göndərir, müxtəlif qruplar burada tərtiblənib döyüşə qatılırdı. "Dəniz pişikləri" axşam saatlarında kənd istiqamətində döyüşə başlayır. Elnur Zeynalov qrup komandiri olaraq bu döyüşdə yer alır. Qısa müddət ərzində kənd azad edilir.

***Darmadağın edilən üçüncü müdafiə eşelonu***

Döyüşün ilk çətin məqamı birinci müdafiə eşelonun, yəni "Ohanyan səddinin" yarılması olsa da, üçüncü müdafiə eşelonunun məhv edilməsi xüsusi əhəmiyyət daşıyırdı. Müxtəlif istiqamətlərdə geri çəkilən düşmən Cəbrayıl rayonunun Əmirvarlı kəndi istiqamətində cəmləşmişdi. Burada ermənilərin həm yüksək sayda canlı qüvvəsi, həm də maddi texniki bazası yerləşirdi.

Əmirvarlı döyüşləri müharibənin əsas məqamlarından biri sayılırdı. Bu kənd azad edildiyi halda Qubadlı, Zəngilan və eləcə də Şuşa istiqamətinə qapı açılır, ordu daha sürətli şəkildə irəliləyə bilirdi.

Cəbrayıl rayonu relyefinə görə çətin döyüşün aparıldığı ərazidir. Rayonun düzənlik hissəsi çox olduğu üçün hücum etmək, irəliləmək çətinləşirdi. Xüsusən da hakim yüksəkliklər düşmən nəzarətində olduğu üçün ağır artilleriya da bu istiqamətdə hər an atəş açırdı. Ərazinin çətinliyi, döyüşün ağırlığına görə bu tapşırıq dəniz canavarlarına həvalə olunur. Qrup komandiri Elnur Zeynalovun tapşırığı bəlli idi - ən az itki ilə ən qısa zamanda eşelonu darmadağın etmək!

Əmirvarlı döyüşləri heyətin zəfəri ilə bitir. Bu istiqamətdə "dəniz pişikləri"nin 3 döyüşçüsü şəhidlik zirvəsinə ucalır.

***Onları ilk Ali Baş Komandan təbrik etdi***

22 oktyabr 2020-ci il - Qubadlı şəhərində ilk dəfə Azərbaycan Ordusunun ayaq səsləri eşidilir. Qubadlı tapşırığı çətin tapşırıqlardan bəlkə də birincisi sayılırdı. Baş leytenant Zeynalov döyüşdən əvvəl heyətinə söyləyir ki, "Nə qədər çətin olsa da, bu yoldan qayıtmaq olmaz. Biz ya qalib olacağıq, ya da şəhid. Amma tapşırığı uğurla yerinə yetirəcəyik!".

Dəniz xüsusi təyinatlıları gecə saatlarında Qubadlı tapşırığına başlayır. Əraziyə iki tərəfdən - dağ yolları və körpü istiqamətindən hücum edirlər. Düşmən Azərbaycan Ordusunu yalnız bir istiqamətdə -körpü yolu ilə gözləyir. Buna görə də şəhərə girən körpünü dağıdırlar. Lakin müzəffər döyüşçülər körpünün ətrafından hərəkət edərək döyüşə başlayırlar. Qısa müddət ərzində düşmən hər tərəfdən mühasirəyə düşür və Qubadlıda Azərbaycan bayrağı dalğalanır.

25 oktyabr tarixində Qubadlı şəhəri "dəniz pişikləri"nin qəhrəmanlığı, şücaəti nəticəsində düşməndən azad edilir. Qubadlının azad olunması məruzəsini də məhz Hərbi Dəniz Qüvvələrinin hərbi qulluqçuları məruzə edir. Bu zəfər münasibəti ilə heyəti ilk təbrik edən də Müzəffər Ali Baş Komandan olur.

***Hərbi Dəniz Qüvvələrinin şah əsəri!***

30 oktyabr 2020-ci il... Baş leytenant Elnur Zeynalovun son, "dəniz pişikləri"nin isə ən çətin döyüş tapşırığı...

Birinci Qarabağ müharibəsində çox nadir ərazilər var ki, orada heç bir döyüş əməliyyatı aparılmayıb. Daha doğrusu, əməliyyat aparmaq üçün nə heyət, nə də maddi-texniki baza olmayıb. Böyük bəla adı ilə tanınan Qızılqaya yüksəkliyi də məhz bu ərazilərdən biridir. Yüksəklik Xocavənd ərazisində olsa da Qarabağın müxtəlif hakim yüksəkliklərinə və eləcə də Beyləqan istiqamətinə kimi bir neçə ərazinin müşahidəsini buradan aparmaq olur. Həmçinin yüksəkliyin düzənliklərlə əhatələnməsi hücum edən tərəfi açıq hədəfə çevirir. Məhz bu səbəblərdən də Qızılqayaya alınmaz qaya adı verilir, buranın azad olunması mümkünsüz sayılırdı. Lakin dəniz xüsusi təyinatlılarının qarşısında heç bir maneə tab gətirə bilməz. Onlar mümkünsüzü mümkün edir. Qızılqaya tapşırığı dəniz xüsusi təyinatlılarının cəsarətinin, qorxmazlığının, peşəkarlığının və canlı əfsanə olmasının bariz sübutudur. Məhz bu tapşırıq belə göstərir ki, niyə onlar dəniz canavarı adına layiq görülüb.

Dəniz xüsusi təyinatlıları Qızılqayaya iki ayrı qrupla, fərqli istiqamətlərdən hücum ediblər. Heyət bilirdi ki, bu tapşırıq əsas döyüş tapşırıqlarından biridir və bu yoldan qayıtmamaq da var...

Vətəni vətən edən, sevdaya döndərən torpağa qanını tökən igidlərdir. O igidlər ki, cəsarəti, qəhrəmanlığı, qorxmazlığı ilə tarix yazdılar. O igidlər ki "şərəf həyatdan ucadır" deyib Qızılqayanı canları bahasına azad etdilər. Bir neçə saat ərzində alınmaz qayada Azərbaycan bayrağı dalğalandı. Elnur, Fərrux, Ruslan, Elvin, Zaur isə bu uğurda əbədilik qazandı.

Elnur Zeynalov xidmətə başlayanda iki arzusu vardı. Xocalını azad etmək və şəhadət qazanmaq... O bir arzusuna - şəhidlik zirvəsinə çatır. Xocalının azad olması isə silah yoldaşlarına həvalə olunur... Baş leytenant qəlbində sonsuz vətən sevgisi, üzərində şanlı forması ilə ayrıldığı Naxçıvana son dəfə 2 noyabrda gəlir. Və elə Naxçıvan da şəhidini böyük qürur və izdihamla qarşılayır.

***"Sonunu düşünən qəhrəman olmaz!"***

Bu sözlər şəhidimizin məzarında yazılıb. Onun igidliyindən, cəsarətindən və ən əsası vətən sevdasından soraq verir.  Elnur və onun kimi yüzlərlə qəhrəman sonu düşünmədi. Çünki onlar vətən sevgisinin son yox, sonsuzluq olduğunu bilirdilər. Onlar bilirdilər ki, Vətən üçün irəli addımlayan hər oğulun adı tarixə, gələcəyə yazılacaq.